History of Science
Vol 7, issue 2, serial 25, 2026, pp.334-343

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# IRAN–PAKISTAN RELATIONS IN THE CONTEXT OF REGIONAL CRISES (1979–1999)

**Narmina Mustafaeva**[1]

**UDC:** 327(55:549)“1979/1999”
**LBC:** 66.4(0):63.3(5Irn+5Pak)6
**HoS:** 177
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.334-343

**Keywords:**

Iran,
Pakistan,
Political relations,
Balanced relations,
Regional events

**Subject area:**

Social Sciences

**Research field:**

International Relations

## ABSTRACT

The article is devoted to the analysis of relations between Iran and Pakistan, with the primary objective of examining the dynamics of the development of Iran-Pakistan relations during the period from 1979 to 2000. It further aims to explore the regional and international factors that shaped these relations, as well as to assess the foreign policy strategies pursued by both sides. The Islamic Revolution that occurred in Iran in 1979 marked the beginning of a new phase in Iran-Pakistan relations. Events such as the Iran hostage crisis, the Iran–Iraq War, and the Soviet Union–Afghanistan War constituted the main factors that determined the course of political relations between the two countries. The contributions made through reciprocal visits between the two countries, as well as the dialogues that took place, are highlighted. The article further investigates the interaction of geopolitical interests shaped against the backdrop of regional conflicts. Consequently, Iran-Pakistan relations during the period under consideration assumed a complex and multifaceted character, combining elements of both cooperation and contradiction.

[1] Doctoral candidate,
Institute of Oriental Studies named after Academician Z. M. Bunyadov, Azerbaijan National Academy of Sciences (ANAS); Baku, Azerbaijan
E-mail: narmina.ebdulhemid@gmail.com
https://orcid.org/0009-0002-7206-1964

**To cite this article:** Mustafaeva, N. [2026]. Iran–Pakistan Relations in the Context of Regional Crises (1979–1999). *History of Science journal*, *7*(2), pp.334-343.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.334-343

***Article history:***
*Received: 3 March 2026*
*Revised: 6 April 2026*
*Accepted: 1 June 2026*
*Published: 15 June 2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# İRAN –PAKİSTAN MÜNASİBƏTLƏRİ REGİONAL BÖHRANLAR KONTEKTİNDƏ (1979-1999-CU İLLƏR)

**Nərminə Mustafayeva**[1]

**UOT:** 327(55:549)“1979/1999”
**KBT:** 66.4(0):63.3(5İrn+5Pak)6
**HoS:** 177
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.334-343

**Açar sözlər:**

İran,
Pakistan,
Siyasi əlaqələr,
Balanslı münasibət,
Regional hadisələr

**Sahə:**

İctimai elmlər

**Tədqiqat sahəsi:**

Beynəlxalq Münasibətlər

## ANNOTASİYA

Məqalə İran və Pakistan arasındakı münasibətlərin təhlilinə həsr olunub və məqalənin əsas məqsədi 1979-1999-cu illər ərzində İran-Pakistan münasibətlərinin inkişaf dinamikasını, bu münasibətlərə təsir edən regional və beynəlxalq amilləri, həmçinin, tərəflərin xarici siyasət strategiyasını təhlil etməkdir. 1979-cu ildə baş vermiş İran İslam İnqilabı İran-Pakistan münasibətlərində yeni mərhələnin başlanğıcını qoymuşdur. İran girovu, İran-İraq müharibəsi və Sovet İttifaqı – Əfqanıstan müharibəsi kimi hadisələr iki ölkə arasındakı siyasi əlaqələrin istiqamətini müəyyən edən əsas faktorlar olmuşdur. Tədqiqatdan aydın görünür ki, Pakistan bu dövrdə xarici siyasətini əsasən balans və praqmatizm prinsipləri üzərində quraraq həm İranla münasibətləri qorumağa, həm də Qərb blokunun regional siyasəti ilə uyğunlaşmağa çalışmışdır. İki ölkə arasında baş tutmuş qarşılıqlı səfərlərin verdiyi töhfələr, baş tutmuş dialoqlar göstərilmişdir. Məqalədə regional münaqişələr fonunda formalaşan geosiyasi maraqların qarşılıqlı təsiri araşdırılır. Nəticə etibarilə, İran-Pakistan münasibətləri qeyd olunan dövrdə həm əməkdaşlıq, həm də ziddiyyət elementlərini özündə birləşdirən mürəkkəb və çoxşaxəli xarakter daşıyır.

[1] Dissertant,
AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu; Bakı, Azərbaycan
E-mail: narmina.ebdulhemid@gmail.com
https://orcid.org/0009-0002-7206-1964
**Məqaləyə istinad:** Mustafayeva, N. [2026]. İran –Pakistan münasibətləri regional böhranlar kontektində (1979-1999-cu illər). *History of Science jurnalı*, *7*(2), səh.334-343.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.334-343

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 03.03.2026*
*Yenidən baxılıb: 06.04.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ОТНОШЕНИЯ МЕЖДУ ИРАНОМ И ПАКИСТАНОМ В КОНТЕКСТЕ РЕГИОНАЛЬНЫХ КРИЗИСОВ (1979–1999 ГГ.)

**Нармина Мустафаева**[1]

**УДК:** 327(55:549)“1979/1999”
**ББК:** 66.4(0):63.3(5Ирн+5Пак)6
**HoS:** 177
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.334-343

**Ключевые слова:**

Иран,
Пакистан,
Политические отношения,
Сбалансированные отношения,
Региональные события

**Область исследования:**

Социальные науки

**Научная область:**

Международные отношения

## АННОТАЦИЯ

Статья посвящена анализу отношений между Ираном и Пакистаном, а её основная цель заключается в исследовании динамики развития ирано-пакистанских отношений в период 1979–2000 гг., факторов регионального и международного влияния, а также внешне политических стратегий сторон. Исламская революция 1979 года в Иране ознаменовала начало нового этапа в ирано-пакистанских отношениях. Такие события, как иранский кризис с заложниками, ирано-иракская война и советско-афганская война, стали ключевыми факторами, определившими направление политических связей между двумя странами. Исследование показывает, что Пакистан в этот период строил свою внешнюю политику преимущественно на принципах баланса и прагматизма, стремясь одновременно сохранить отношения с Ираном и согласовать их с региональной политикой западного блока. В статье освещаются взаимные визиты и диалоги, сыгравшие важную роль в развитии двусторонних связей. Также рассматривается влияние геополитических интересов, формировавшихся на фоне региональных конфликтов. В итоге ирано-пакистанские отношения в указанный период носили сложный и многогранный характер, сочетая в себе элементы как сотрудничества, так и противоречий.

[1] Диссертант,
Институт востоковедения имени академика З.М.Буниятова НАНА; Баку, Азербайджан
E-mail: narmina.ebdulhemid@gmail.com
https://orcid.org/0009-0002-7206-1964

**Цитировать статью:** Мустафаева, Н. [2026]. Отношения между Ираном и Пакистаном в контексте региональных кризисов (1979–1999 гг.). *Журнал History of Science*, *7*(2), с.334-343.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.334-343

***История статьи:***
*Поступила: 03.03.2026*
*Переработана: 06.04.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

İran 1947-ci ildə Pakistanı müstəqil olduqdan sonra tanıyan birinci ölkə olduğu kimi 1979-cu ildə İranda islam inqilabından sonra Pakistan da yeni hökuməti tanıyan ilk ölkə olmuşdur. Hər iki ölkənin bir-birlərini birinci tanımaqlarına, müsəlman ölkələri, o cümlədən qonşu ölkələr olmaqlarına baxmayaraq, tərəflər arasında münasibətlər bəzən gərgin şəkildə olmuş, bəzən isə dostluq şəklində olmuşdur. İran və Pakistan arasında münasibətlər iki mərhələyə bölünmüşdür. 1-ci mərhələ Pakistan yarandıqdan 1979-cu ilə qədər olan dövrü əhatə etmiş, 2-ci mərhələ isə 1979-cu ildən bu günə qədər olan illəri əhatə edir. Münasibətlərin birinci mərhələsində iki ölkə arasında sakit və qonşuluq əlaqələri hökm sürsə də, ikinci mərhələdə maraqlar və məzhəb səbəbindən aralarında strateji rəqabət yaranmışdır. 1979-cu ildən sonrakı dövrdə İran-Pakistan münasibətləri müxtəlif regional böhranların təsiri altında formalaşmışdır.

## 2.Regional hadisələrin İran-Pakistan münasibətlərinə təsiri

1979-cu il noyabrın 4-də İran İslam Respublikasının Tehran şəhərindəki ABŞ səfirliyi radikal tələbələr tərəfindən ələ keçirilmiş, 52 amerikalı 444 gün girov saxlanılmışdır [Coscia, s.7]. Bu hadisə İran və Pakistan arasında dərin böhran yaratmış və Pakistan üçün çətin diplomatik sınaqlarından biri hesab olunurdu. Girov böhranının ən gərgin vaxtında, 1979-cu ilin 21 noyabr tarixində Məkkədəki Məscidül-Həramın ABŞ tərəfindən ələ keçirildiyi barədə saxta xəbərlər yayılmışdır. Bu hadisələr zamanı Pakistanın müsəlman əhalisi paytaxt İslamabaddakı ABŞ səfirliyinə hücum edərək onu yandırmış və bu hadisə Pakistan üçün ciddi təhlükəsizlik və diplomatik böhran olmuşdur. ABŞ tərəfi Pakistanın bunu qəsdən etdiyini düşünmüş və İran inqilabının təsiri ilə əlaqələndirmişdir.

Belə bir zamanda İran hökuməti Pakistanın ABŞ-a qarşı daha sərt mövqe sərgiləməsini gözləsə də, Pakistan rəhbərliyi bu məsələdə birtərəflilik siyasəti yürütməyi üstün tutmuşdur. İran hökuməti də onun bu siyasətini Qərbin tərəfini saxlamaq kimi qəbul etmişdir.

1980-ci ilin aprel ayında ABŞ hökuməti girovları xilas etmək üçün uğursuz “Qartal Pəncəsi” əməliyyatı həyata keçirərkən, İran tərəfi ABŞ-ın Pakistanın hava məkanından və ya bazalarından istifadə edə biləcəyindən ciddi şübhələnmişdir. Pakistan rəsmi şəkildə buna icazə vermədiyini söyləmişdir, çünki onlar hərbi müdaxiləni dəstəkləməkdən çəkinmiş və bu böhranın diplomatik yollarla həllini üstün tutmuşdur [Afzal, 2019]. Qeyd edək ki, girov böhranı 1981-ci il 20 yanvar tarixində İran və ABŞ arasında əldə olunan razılaşma ilə başa çatmışdır. Beləliklə, bu illər İran-Pakistan münasibətlərində yeni mərhələnin başlanğıcı hesab olunur. Pakistanın bu dövrdə yürütdüyü balanslı və praqmatik siyasət sonrakı illərdə də iki ölkə arasındakı münasibətlərin əsas xəttini müəyyən etmişdir.

Qeyd etmək lazımdır ki, bu böhranın yaratdığı gərginlik 1979-cu ilin sonunda SSRİ-nin Əfqanıstana müdaxiləsi zamanı ikinci plana keçməyə başlamışdır. İran və Pakistan arasında əsas məsələlərdən biri Əfqanıstan problemi olmuşdur. Hətta, Əfqanıstan problemi bəzən iki qonşu ölkə arasındakı münasibətləri rəqabət həddinə çatdırmış, o cümlədən, ciddi təhlükə, siyasi, sosial və iqtisadi problemlər yaratmışdır. İran İslam Respublikasının o vaxtki ali dini lideri Ayətullah Xomeyni və Pakistan İslam Respublikasının o vaxtki Prezidenti general Ziya-ül-Həqq Sovet qoşunlarının Əfqanıstandan qısa zaman ərzində çıxarılmasını, həmçinin, Əfqanıstanda suveren islam hökumətinin bərpa olunmasını dəstəkləyirdilər.

Pakistan hökuməti, İranın Əfqanıstana göstərdiyi mənəvi və siyasi dəstəyi yüksək qiymətləndirmiş və bu mövqeyi onların dostluq və əməkdaşlıq tarixində parlaq bir səhifə olduğunu bəyan etmişdir.

“Bu zaman ərzində İran həm də öz daxili problemləri ilə məşğul olurdu. İran ölkədaxili problemlər və 1980-1988-ci illərdə İran-İraq müharibəsinə görə Əfqanıstanda kifayət qədər fəal ola bilməmişdir. Eyni zamanda diqqəti girov böhranına da yönəltmişdir. Müharibə nəticəsində yaranan büdcə məhdudiyyətləri Əfqanıstanla bağlı hərtərəfli strategiyanın

formalaşdırılmasını da məhdudlaşdırırdı. Bununla belə, Əfqanıstandakı vəziyyət İranın təhlükəsizliyi üçün ciddi narahatlıq yaradırdı, çünki Sovet İttifaqı tərəfindən İrana qarşı birbaşa hərbi təhdid yaranmışdır. İranda mövcud olan anarxik siyasi vəziyyəti nəzərə alaraq, bir çox müşahidəçilər İranın Əfqanıstandan sonra Sovet Birliyinin növbəti hədəfi ola biləcəyini düşünürdülər" [Mustafayeva, 2025, s.140].

Pakistan hökuməti Sovet İttifaqının Əfqanıstana müdaxiləsi dövründə siyasi, strateji və iqtisadi çətinliklərlə üzləşirdi. Siyasi baxımdan, Sovet təcavüzündən qaçanlara və Əfqanıstan mücahidlərinə yardım göstərdiyi üçün böyük təzyiqlə qarşılaşırdı. İqtisadi baxımdan 2 milyondan çox Əfqanıstan qaçqınlarının yükünü daşıyır, strateji baxımdan isə Sovet İttifaqından birbaşa hərbi təhdid ilə üzləşirdi. Hətta, tez-tez rus təyyarə və helikopterləri tərəfindən hava məkanının pozulması halları ilə də qarşılaşırdı [Mustafayeva, 2025, s.140].

Məlum olduğu kimi, həmin illərdə Pakistan İslam Respublikasının və İran İslam Respublikasının rəhbər və hökümət nümayəndələri Əfqanıstan probleminin siyasi yolla həlli üçün qarşılıqlı səfərlər təşkil edirdilər. Beləliklə, 1981-ci ilin 2 fevral tarixində Pakistan İslam Respublikasının o vaxtki xarici işlər naziri Ağa Şahi İran İslam Respublikasına rəsmi səfər etmişdir və bu səfərin məqsədi Pakistanın Əfqanıstan məsələsi üzrə dialoq təşəbbüsünə İranın dəstəyini qazanmaq idi [Ahmad & Khan, 2009]. Görüş zamanı Pakistanın xarici işlər naziri Ağa Şahi İran rəhbərliyi ilə İran-İraq müharibəsinin dayandırılması üçün İslam ölkələrinin təşəbbüsü barədə də müzakirələr aparmışdır. Bu səfər iki ölkə arasında diplomatik əlaqələrin qorunması və regional məsələlər, xüsusilə Əfqanıstan və İran-İraq müharibəsi kontektində mövqelərin uzlaşdırılması məqsədi daşıyırdı. Bundan əlavə, İranın 16 iyun 1982-ci ildən etibarən BMT-nin himayəsi altında Əfqanıstan üzrə aparılan Cenevrə danışıqlarında iştirakdan imtina etməsinə baxmayaraq, Pakistan danışıqlar boyu İranın həmin müzakirələrdə baş verən inkişaflar barədə tam şəkildə məlumatlandırıldığını xüsusi olaraq vurğulayırdı [Ahmad & Khan, 2009]. 1981-1982-ci illərdə Əfqanıstan problemi üzrə aparılmış Cenevre danışıqları BMT-nin davamlı diplomatik təşəbbüsləri nəticəsində formalaşmış və sonrakı razılaşmalar üçün əsas yaratmışdır.

Əfqanıstan münaqişəsinin yaratdığı qaçqın axını İran və Pakistan üçün sosial-iqtisadi və siyasi problemlər yaratmışdır. Xüsusilə, 1980-1984-cü illər ərzində təxminən beş milyon əfqan qaçqınının bu ölkələrə sığınması hər iki dövlətin iqtisadi resurslarına əlavə yük gətirmiş, eyni zamanda daxili siyasi sabitlik və təhlükəsizlik baxımından mühüm çətinliklər yaratmışdır [UNHCR, 1985].

**3.İran-İraq müharibəsi**

1980-ci ilin 22 sentyabr tarixində Yaxın Şərqin uzunmüddətli və dağıdıcı müharibələrindən biri olan İran-İraq müharibəsi Səddam Hüseyn rəhbərliyi altında İraq ordusunun İranın neftlə zəngin olan Xuzistan əyalətinə hücumu ilə başlamışdır. Müharibənin əsas səbəbi kimi ərazi mübahisələri və İran İslam İnqilabının regional təsirlərindən ibarət idi. Uzun müddət davam edən müharibə 1988-ci ilin 20 avqust tarixində BMT-nin vasitəçiliyi ilə sona çatdırılmış və tərəflər arasında atəşkəs imzalanmışdır. Pakistanın Yaxın Şərq regionunda xarici siyasəti ən yaxşı şəkildə "neytrallıq-balanslaşdırma" yanaşması prizmasından izah olunur. Bu yanaşma sərt neytrallıq ilə daha aktiv siyasət arasında dinamik dalğalanma və onların birləşməsini ifadə edir [Amin, 2002, s.152]. Belə ki, Pakistan hökuməti hər iki tərəflə əlaqələri qorumağa çalışırdı. Amma bəzi araşdırmalar göstərir ki, Pakistan müharibə zamanı silahlar və maliyyə yardımı göndərmişdir. Bəzi mənbələrə görə isə, Pakistan ordusu hərbi təlim və logistik dəstək də təklif etmişdir. Hətta ABŞ və Səudiyyə Ərəbistanı Pakistanı İraqa dəstək verməyə dəfələrlə çağırmışdır. Pakistan hökuməti İranla olan qonşuluq və dini ölkə olma prinsiplərini əsas götürərək müharibə ərzində daha çox İrana tərəf olmuşdur.

1984-cü ildə ABŞ-ın o zamankı prezidenti Corc Buş Pakistan İslam Respublikasına rəsmi səfəri zamanı Pakistan Prezidenti Ziya-ül Həqqə Bəlucistanda əfqan mücahidlərini qızışdıraraq İranı daxildən sarsıtmağı təklif etmişdir [Khan & Ziauddin, 2008, s.123]. Lakin Pakistan rəhbəri İranı dəyərli strateji tərəfdaş hesab edərək bu təklifə rədd cavabı vermişdir [Jalal & Ullah, 2023, s.43]. Bunu da qeyd etmək lazımdır ki, Pakistan rəhbərliyi özünün xarici siyasət strategiyasında “müsəlman dünyasının birliyi” prinsipini əsas götürərək, o, münaqişənin həlli üçün əsas diplomatik vasitəçi rolunu oynamışdır. Pakistan İslam Respublikasının Prezidenti Ziya-ül Həqq İran-İraq müharibəsinə realist və ehtiyatlı yanaşaraq bu müharibənin hansı şəkildə bitəcəyini öncədən düzgün proqnozlaşdıran liderlərdən biri olmuşdur. Belə ki, o, müharibənin hər iki tərəf üçün tam qələbə ilə bitməyəcəyini, əksinə, “hərbi çıxılmaz vəziyyət” ilə nəticələnəcəyini bilmişdir. Pakistan rəhbərinin “strateji uzaqgörənlik” baxışı Pakistanın müharibə boyu hər iki tərəflə balanslı münasibət saxlamasının əsas səbəbi kimi göstərilir [Vatanka, 2017, s.158].

**4.İqtisadi sahədə əməkdaşlıq**

1985-ci ildə İran, Pakistan və Türkiyənin təşəbbüsü ilə İqtisadi Əməkdaşlıq Təşkilatı yaradılmışdır. Baş qərargahı İran İslam Respublikasında yerləşən təşkilatın əsas məqsədi üzv ölkələr arasında regional iqtisadi əməkdaşlığın, ticarət, nəqliyyat, enerji, texniki və mədəni sahələrdə əməkdaşlığın gücləndirilməsindən, regional ticarətin liberallaşdırılmasından, kommunikasiyaların inkişaf etdirilməsindən və üzv ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasından ibarətdir. Qetd edək ki, İran və Pakistan İƏT-in əsas təsisçiləri və aparıcı üzvləridir. Hər iki ölkə təşkilatın iqtisadi və nəqliyyat layihələrinin maliyyə və siyasi dayağını da təmin edir.

İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində İran və Pakistan davamlı olaraq ikitərəfli ticarət və iqtisadi əməkdaşlıq əlaqələrinin gücləndirilməsi üçün bu platformadan yararlanmış, bununla yanaşı, infrastruktur və sənaye inkişafı sahələrində strateji təşəbbüslərə önəm vermişlər (Türker).

Pakistan və İran təşkilat çərçivəsində digər üzv dövlətlərlə koordinasiyalı şəkildə iqtisadi sabitliyin möhkəmləndirilməsi, ticarət maneələrinin azaldılması və regional iqtisadi inteqrasiyanın dərinləşdirilməsi məqsədilə birgə təşəbbüslərin hazırlanması və həyata keçirilməsində fəal iştirak etmişlər [Word Bank, 2019].

İran İslam Respublikasının Prezidenti Əli Xamenei 1986-cı ilin fevral ayında Pakistana rəsmi səfər həyata keçirmiş və bu səfər iki ölkə arasındakı güclü münasibətləri daha da möhkəmləndirmişdir.

1996-cı ildə Əfqanıstanda Taliban hökuməti qurulduqdan sonra tərəflər arasında soyuqluq yaranmışdır. Talibanın şiələrə qarşı qəddar darvanışları İran hökumətini qəzəbləndirirdi. 1998-ci il avqust ayının 8-11-də İran İslam Respublikasının Əfqanıstanın Məzari- Şərifdəki konsulluğunda Taliban tərəfindən səkkiz diplomat, bir jurnalisti və minlərlə həzəranı qətlə yetirilmişdir [Mustafayeva, 2026, s.361]. Bu hadisədən sonra İran Talibanı öz milli təhlükəsizliyinə xüsusi təhdid kimi qəbul etmiş, tərəflər arasında münasibətlər müharibə həddinə qədər çatmışdır [Koepke, 2013, s.7]. İran hökuməti Talibanı “terrorçu qrup” adlandırmışdır. SEPAH cavab xarakterli hərbi müdaxiləni müdafiə edərkən, digər yüksək səviyyəli rəsmilər bunun Talibana bağlı radikal sünni islamçıların İranın milli maraqlarına qarşı hücumlarına səbəb ola biləcəyindən ehtiyat edirdilər. Bu hadisələr İranı birbaşa hərbi cavab vermək həddinə gətirmişdir. Amma İran İslam Republikasının o zamanki prezidenti Məhəmməd Hatəminin (1997-2005-ci illər) mötədil yanaşması son nəticədə üstünlük təşkil etmişdir. 1998-ci ilin oktyabrında güc nümayişi olaraq İranın şərq sərhədinə 200000 əsgər səfərbər edilmişdir. Hətta bu hərbi variantlar müzakirə olunarkən Talibanın Qəndəharda bir neçə iranlını qaçırması İran rəsmilərinə ilk dəfə talibanlarla diplomatik səviyyədə birbaşa əlaqə yaratmaq imkanı vermişdir. İran dövləti Talibanın bu

hərəkətinə görə birbaşa Pakistandan məsuliyyət tələb edirdi, çünki Pakistan hökumətini Talibanın əsas dəstəkçisi hesab edirdi. İran tərəfi bu hadisəni həm insanlıq əleyhinə cinayət, həm də dövlətlərarası təxribat kimi qəbul etmişdir.

1999-cu ilin dekabr ayında Pakistan İslam Respublikasının o vaxtki prezidenti general Pərviz Müşərrəf İranla arasındakı gərginliyi aradan qaldırmaq və əlaqələri tənzimləmək üçün İran İslam Respublikasına səfər etmişdir. Ölkə prezidentlərinin görüşü zamanı İran İslam Respublikasının o vaxtki prezidenti Məhəmməd Hatəmi İran və Pakistan arasındakı əlaqələri "dərin və qırılmaz" adlandırmış və hər iki ölkənin ortaq mədəni və İslam əsaslarına dayandığını bildirmişdir. O, çıxışı zamanı vurğulamışdır ki, "Şübhəsiz ki, iki ölkənin milli maraqları bir-biri ilə bağlıdır və biz birlikdə bu maraqları qorumağa çalışmalıyıq. Prezident M.Hatəminin "milli maraqlar bir-birinə bağlıdır" bəyanatı hər iki ölkənin təhlükəsizlik və milli maraqları ilə bağlı oxşar siyasi və strateji düşüncəyə malik olmasını göstərir. Onun səfəri həm də öz rejimi üçün legitimliyi təmin etmək məqsədi daşıyırdı.

Görüş zamanı İran İslam Respublikasının keçmiş prezidenti Məhəmməd Hatəmi Pakistan hökumətini və hakimiyyət orqanlarını problemlə qətiyyətlə məşğul olmağa çağırmışdır (4,534).

Aydın görünür ki, inqilabdan sonra formalaşan yeni siyasi proseslər əlaqələrin mahiyyətini dəyişmişdir. Araşdırma göstərir ki, Pakistan bu dövrdə xarici siyasətini əsasən balans və praqmatizm prinsipləri əsasında qurmuş, həm İranla münasibətləri qorumağa, həm də Qərb dövlətləri ilə əməkdaşlığı davam etdirməyə çalışmışdır. Pakistanın geostrateji mövqeyi onun daxili və xarici siyasətini müəyyən edən əsas faktorlar sırasındadır. O, Qərb dünyası ilə müsəlman dünyası arasında bir körpü rolunu oynamaqla yanaşı güc dövlətləri ilə mühüm əməkdaşlıq əlaqələrinə sahibdir [Cəfərov, 2025, s.20].

1979-1999-cu illərdə İran-Pakistan münasibətləri sabit və birmənalı inkişaf xəttinə malik olmamış, dəyişkən xarakter daşımışdır. Bu dövr iki ölkə arasında münasibətlərin gələcək inkişaf istiqamətlərini müəyyən edən mərhələ kimi qiymətləndirilə bilər.

## 5.REFERENCES


1. Mammadli, M. (2017). *Afghanistan from Soviet occupation to American intervention*. Baku, 219 p. (in Azerbaijani)
2. Mustafayeva, N. (2025). The impact of the Soviet Union's military intervention in Afghanistan on Iran and Pakistan relations. *History, Human and Society*, 140 p. (in Azerbaijani)
3. Turker, M. (2026). *ECOTA (Economic Cooperation Organization Trade Agreement) and recent developments*. Retrieved from https://www.mfa.gov.tr/ekonomik-isbirligi-teskilati-ticaret-anlasmasi-_economic-cooperation-organization-trade-agreement-ecota_-ve-son-gelismeler-.tr.mfa (in Turkish)
4. Alam, Sh. (2004). Iran–Pakistan relations: Political and strategic dimensions. *Strategic Analysis*, *28*(4). https://doi.org/10.1080/09700160408450157 (in English)
5. Ahmad, S., & Khan, Z. A. (2009). Pakistan and Iran in Afghanistan: From Soviet intervention to the fall of the Taliban. *Central Asia Journal*, *64*. Retrieved from https://asc-centralasia.edu.pk/old_site/Issue_64/02_Pakistan_and_Iran_in_Afghanistan.html (in English)
6. Afzal, M. (2019). *1979: Another embassy under siege*. Retrieved from https://www.brookings.edu/articles/1979-another-embassy-under-siege/ (in English)
7. Amin, S. M. (2002). *Pakistan's foreign policy: A reappraisal*. Karachi, 340 p. (in English)

**8.** Baker, B. (1981, February 24). *Iran responds positively on mediation fronts; peace mission to end Iran–Iraq war not yet successful, but hopes for solution are rising.* Retrieved from https://www.csmonitor.com/1981/0224/022439.html (in English)
**9.** Coscia, M. (2025). The fateful fifty-two: How the American media sensationalized the Iran hostage crisis. *Colloquium: The Political Science Journal of Boston College*, *1*(1), 6–15. https://ejournals.bc.edu/index.php/colloquium/article/view/19875/13203 (in English)
**10.** Hiro, D. (1991). *The longest war: The Iran–Iraq military conflict*. London, 376 p. (in English)
**11.** HISTORY.com Editors. (2009). *Iran hostage crisis ends.* Retrieved from https://www.history.com/this-day-in-history/january-20/iran-hostage-crisis-ends (in English)
**12.** Jalal, S., & Ullah, U. (2023). Shifting alliances: Iran–Pakistan relations in the aftermath of the Islamic Revolution and Soviet invasion of Afghanistan. *The Regional Tribune, 2*(1), 42–50. https://doi.org/10.63062/trt/2k23a.25108 (in English)
**13.** Khan, Z. A., & Ziauddin, M. (2008). Pakistan and revolutionary Iran: The US factor. *Pakistan Perspectives*, *13*(2), 121–130. (in English)
**14.** Khan, R. M. (1991). *Untying the Afghan knot: Negotiating Soviet withdrawal*. 424 p. (in English)
**15.** Koepke, B. (2013). *Iran's policy on Afghanistan: The evolution of strategic pragmatism*. SIPRI, 29 p. Retrieved from https://www.sipri.org/sites/default/files/files/misc/SIPRI13wcaBK.pdf (in English)
**16.** Shah, M. N. U. H., Niaz, M., & Zahra, A. (2025). Pakistan's strategic calculus: Navigating the Iran–Saudi rivalry. *Journal of Religion and Society*, *4*(01), 463–479. Retrieved from https://www.islamicreligious.com/index.php/Journal/article/view/230 (in English)
**17.** Razoux, P. (2015). *The Iran–Iraq war*. Cambridge, MA: Harvard University Press, 679 p. (in English)
**18.** Khan, M. S., Khan, I. U., Hafiz, I., Rauf, H., Latif, A., & Tahir, M. (2015). Study regarding Pakistan and Iran relations. *International Affairs and Global Strategy*, *30*. Retrieved from https://www.researchgate.net/publication/313768622_Study_Regarding_the_Pakistan_and_Iran_Relations (in English)
**19.** Vatanka, A. (2017). *Iran and Pakistan: Security, diplomacy and American influence*. 320 p. (in English)
**20.** World Bank. (2019). *Regional integration in South Asia*. Washington, DC. (in English)
**21.** United Nations High Commissioner for Refugees. (1985, September 13). Report of the United Nations High Commissioner for Refugees. *United Nations General Assembly Official Records: Fortieth Session*. Retrieved from https://www.unhcr.org/publications/report-united-nations-high-commissioner-refugees-6 (in English)
**22.** Jafarov, I. (2025). Pakistan's military-political position and role in the modern world. *History of Science Journal*, *6*(2), 15–30. https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.15-30 (in Azerbaijani)
**23.** Davudi, M., Kiyani, D., & Barzegar, K. (2023). The rise of the Taliban and the approach of the Islamic Republic of Iran. *Journal of Central Asian and Afghanistan Studies*. https://doi.org/10.22034/FASIW.2023.374119.1224 (in Persian)
**24.** Ahmadi, A., & Mohammadi, H. (2015). Divergence in Iran–Pakistan relations: A two-level geopolitical analysis (future scenarios and convergence solutions). *Political*

*Research in the Islamic World*. Retrieved from https://journals.atu.ac.ir/article_7187.html?lang=en (in Persian)

**25.** Mustafayeva, N. (2026). Iran–Pakistan cooperation within international organizations (UN, Organization of Islamic Cooperation). *Metafizika Journal*, *9*(1), 356–369. https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.356-369 (in English)

## ƏDƏBİYYAT

**1.** Məmmədli, M. (2017). *Əfqanıstan Sovet işğalından Amerika müdaxiləsinə*. Bakı, 219 s.

**2.** Mustafayeva, N. (2025). Sovet İttifaqının Əfqanıstana hərbi müdaxiləsinin İran və Pakistan münasibətlərinə təsiri. *Tarix, insan və cəmiyyəti*, 140 s.

**3.** Türker, M. (2026). *Ekonomik İşbirliği Teşkilatı Ticaret Anlaşması (Economic Cooperation Organization Trade Agreement-ECOTA) ve Son Gelişmeler*. https://www.mfa.gov.tr/ekonomik-isbirligi-teskilati-ticaret-anlasmasi-_economic-cooperation-organization-trade-agreement-ecota_-ve-son-gelismeler-.tr.mfa

**4.** Alam Sh. (2004). Iran-Pakistan relations: political and strategic dimensions. *Strategic Analysis*, *28*(4). https://doi.org/10.1080/09700160408450157

**5.** Ahmad, S., & Khan, Z. A. (2009). Pakistan and Iran in Afghanistan: From Soviet Intervention to the Fall of Taliban. *Central Asia Journal*, *64*. Pakistan. https://asc-centralasia.edu.pk/old_site/Issue_64/02_Pakistan_and_Iran_in_Afghanistan.html

**6.** Afzal, M. (2019). *1979: Another embassy under siege*. https://www.brookings.edu/articles/1979-another-embassy-under-siege/

**7.** Amin, S. M. (2002).*Pakistan's Foreign Policy: A Reappraisal*. Karachi, 340 p.

**8.** Baker, B. (1981). *Iran responds positively on mediation fronts; Peace mission to end Iran-Iraq war not yet successful, but hopes for solution are rising Feb.24*. https://www.csmonitor.com/1981/0224/022439.html?utm_source

**9.** Coscia, M. (2025). The Fateful Fifty-Two:How the American Media Sensationalized the Iran Hostage Crisis. *Colloquium: The Political Science Journal of Boston College*, *1*(1), 6–15. https://ejournals.bc.edu/index.php/colloquium/article/view/19875/13203

**10.** Hiro, D. (1991). *The Longest War: The Iran-Iraq Military Conflict*. London, 376 p.

**11.** Editors. (2009). *Iran Hostage Crisis ends*. HISTORY.com Retrived from https://www.history.com/this-day-in-history/january-20/iran-hostage-crisis-ends

**12.** Jalal, S., & Ullah, U. (2023). Shifting Alliances: Iran-Pakistan Relations in the Aftermath of the Islamic Revolution and Soviet Invasion of Afghanistan. *The Regional Tribune*, *2*(1), 42-50. https://doi.org/10.63062/trt/2k23a.25108

**13.** Khan, Z. A., & Ziauddin, M. (2008). Pakistan and Revolutionary Iran: The US Factor. *Pakistan Perspectives*, *13*(2), 121-130.

**14.** Khan, R. M. (1991). *Untying the Afghan Knot: Negotiating Soviet Withdrawal*. 424 p.

**15.** Koepke, B. (2013). *Iran's policy on Afganistan. The Evolution of Strategic pragmatism*. Sweden: SIPRI, 29 p. https://www.sipri.org/sites/default/files/files/misc/SIPRI13wcaBK.pdf

**16.** Shah, M. N. U. H., Niaz, M., & Zahra, A. (2025). Pakistan's Strategic Calculus: Navigating the Iran-Saudi Rivalry. *Journal of Religion and Society*, *4*(01), 463–479. https://www.islamicreligious.com/index.php/Journal/article/view/230

**17.** Razoux, P. (2015). *The Iran-Iraq War*. Cambridge, MA: Harvard University Press, 679 p.

**18.** Khan, M. S., Khan, I. U., Hafiz, I., Rauf, H., Latif, A., & Tahir, M. (2015). Study Regarding the Pakistan and Iran Relations. *International Affairs and Global Strategy*, *30*.

https://www.researchgate.net/publication/313768622_Study_Regarding_the_Pakistan_and_Iran_Relations

**19.** Vatanka, A. (2017). *Iran and Pakistan: Security, diplomacy and American influence*. 320 p.

**20.** Word Bank. (2019). *Regional Integration in South Asia*. Washington, DC.

**21.** UN Refugee Agency. (1985, 13 September). Report of the United Nations High Commissioner for Refugees. *United Nations General Assembly Official Records: Fortieth Session.* https://www.unhcr.org/publications/report-united-nations-high-commissioner-refugees-6

**22.** Cəfərov, İ. (2025). Pakistan İslam Respublikasının müasir dünyada hərbi-siyasi yeri və rolu. *History of Science jurnalı*, *6*(2), 15-30. https://doi.org/10.33864/2790-0037.2025.v6.i2.15-30

**23.** داودی، م.، کیانی، د.، & برزگر، ک. (2023). قدرت یابی طالبان و رویکرد جمهوری اسلامی ایران. *فصلنامه مطالعات آسیای مرکزی و افغانستان*. https://doi.org/10.22034/FASIW.2023.374119.1224

Davudi, M., Kiyani, M., & Bərzgər, K. (2023). *Talibanın güclənməsi və İran İslam Respublikasını yanaşması.* https://doi.org/10.22034/FASIW.2023.374119.1224

**24.** احمدی، ا.، & محمدی، ح. (2015). واگرایی روابط ایران و پاکستان: تحلیل دو سطحی از ژئوپلیتیک (سناریوهای آینده این روابط و ارائه راهکارهای همگرایی). *پژوهش‌های سیاسی جهان اسلام*. https://journals.atu.ac.ir/article_7187.html?lang=en

Əhmədi, İ., & Məhəmmədi, H. (2015). İran–Pakistan münasibətlərində geosiyasi uzaqlaşmanın iki səviyyəli təhlili (bu münasibətlərin gələcək ssenariləri və yaxınlaşma üçün həll yollarının təqdim olunması). *Siyasət üzrə Strateji Tədqiqatlar Jurnalı.*

**25.** Мустафаева, Н. (2026). ИраНО-Пакистанское Сотрудничество В Рамках Международных Организаций (ООН, Организация исламского сотрудничества). Журнал «*Metafizika*», *9*(1), 356-369. https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.356-369